# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101) ilə təsdiq edilmiş “Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.7-ci bənddə “Reyestrin formalaşdırılması, aparılması, digər dövlət qurumlarının informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası, arxivləşdirilməsi və digər” sözləri “Reyestrlə bağlı bu Qayda ilə tənzimlənməyən” sözləri ilə əvəz edilsin.

2. 5-ci hissə üzrə:

2.1. adından “və onların dövriliyi” sözləri çıxarılsın;

2.2. 5.1.12-ci yarımbəndin 3-cü və 4-cü abzasları aşağıdakı redaksiyada verilsin:

“3. işçinin aylıq əməkhaqqının məbləği (manatla);

4. işçinin vəzifəsinin (peşəsinin) adı;”;

2.3. 5.1.14-cü yarımbənddə “pensiya, müavinət” sözləri “əmək pensiyası, sosial müavinət” sözləri ilə əvəz edilsin;

2.4. 5.1.21-ci və 5.1.24-cü yarımbəndlərdən “ümumi və” sözləri çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 7 iyun 2021-ci il

№ 165